TÜRK AŞIQ ƏDƏBİYYATININ GÖRKƏMLİ NÜMAYƏNDƏSİ

Altmışıncı illərin əvvəllərində mən Elmlər Akademiyasının aspiranturasında oxuyarkən Bolqarıstandan Bakıya gələrək Dövlət universitetində təhsil alan Riza Mollovla yaxından dostluq edirdim. Bolqarıstanda çap olunmuş bir neçə folklora aid əsərlərini də mənə hədiyyə etmişdi. Onunla görüşərkən söhbətimiz ən çox türk saz şairlərindən gərdi. Onun ən çox söhbət açdığı Qaracaoğlan adlı türk aşığı idi. Hətta o, 1958-ci ildə Sofiyada (türk dilində) nəşr etdirdiyi "Ədəbi məqalələr" adlı kitabında Qaracaoğlandan geniş bəhs etmişdi. O göstərirdi ki, Qaracaoğlan XVII əsrdə yaşayıb-yaradan görkəmli türk aşığıdır. Qaracaoğlan haqqında bir-sıra türk alimləri tədqiqat aparmış, nəhayət, onlar da şairin öz əsərlərinə qoşmalarına XVII əsrin əvvəllərinde doğulduğunu, Şərqi Anadoluda yaşayıb-yaratdığını təsdiq etmişlər. Xüsusilə Cahid Öztelli, Fuad Köprülü, Saləddin Nüzhet və başqaları bu söz şairinin həyat və yaradıcılığına dair daha ciddi tədqiqat aparmışlar.

Riza Mollov Qaracaoğlanın Şərqi Anadolunun köçəri türk tayfaları arasında yaşayıb-yaratdığını qeyd etmişdir. Mən ona bildirdim ki, Qaracaoğlanı Azərbaycanda da yaxşı tanıyırlar. Azərbaycan alimlərindən folklorşünas Əffəman Axundov 1964-cü ildə Azərnəşrdə çap etdirdiyi "Telli saz ustadları" adlı kitabına Qaracaoğlanın bir sıra şerlərini da daxil etmişdir. Məsələn, onun:

Ala gözlü, nazlı dilber,
Elinden xəbərin varmı?
Sevgilim, kəmər açılıb,
Belinden xəbərin varmı?
Ala gözlü, nazlı dilber,
Vaxtın keçər, dəmədimmi?
Qışın çəllad, gözün yağı,
Qanım içər, dəmədimmi?
Bax bu qaşa, bax bu gözə,
Yandı bağrım, döndü kəzə.
Yaxasızı öldməyi bilə,
Fələk biçər dəmədimmi?

və sair.

Qaracaoğlan haqqında Xalidə xanım Quliyevanın monoqrafiyası da diqqətəlayiqdir. Xeyli zəhmətin məhsulu olan bu tədqiqat əsərində Qaracaoğlan haqqında göyünü, nəşr olunmuş Azərbaycan, bolğar, türk alimlərinin fikirləri, qeydləri də öz əksini tapmışdır.

O zaman Riza Mollov deyərdi ki, anadolulularla qazaxıslarını danışığında elə bir ciddi fərq yoxdur. Qaracaoğlan da mehz bu şəvə, bu dialektdə öz şerlərini söyləmişdir. Ona görə də Qaracaoğlanı iki sözlə, yani Qaraca ve oğlan kimi deyil, bir sözlə — Qaracaoğlan kimi, ifadə etmək lazımdır. Çünki şairin şerlərindən göründüyü kimi her tapşırmada "Qaracaoğlan" kimi teləffüz olunmuşdur. Əgər Qaraca oğlan kimi teləffüz etsək, görərik ki, hecanın biri artıqdır.

Sabahleyn dan üzünə,
Sürmeler çekmiş gözünə.
İkialın almış üzünə,
Güler nazlana-nazlana.

Qaracaoğlan der merdana,
Gözel içinde bir dane.
Zülfünü tökmüş gerdana
Darar nazlana-nazlana.

Burada göründüyü kimi, iki olli demir, ikiolli söyləyir. Qaraca oğlan demir, Qaracaoğlan kimi ifadə edir. Yaxud, "deyir" sözünü "der" kimi işlədir. Bəzi tədqiqatçılarımız isə aşığın bu qəbil ifadələrini pozur, bəzən Qaracaoğlanı iki sözlə, ayrı yazırlar. Bizcə, bu düzgün deyil. Yeri gəlmişkən qeyd edək ki, Riza Mollovun adını da "Riza" kimi qeyd edirlər, halbuki, müəllif her yerdə adını Riza kimi yazmışdır. Müəllifin bizdə olan əlyazmasında da "Rıza" yox, "Riza Mollov" kimi yazılmışdır. Umumiyyətlə, Qaracaoğlan bəzi şerləri tam külliyyat şəklinde toplanıb nəşr edilərsə, oxucularımız üçün ən qıymətli ermağan olar. XVII əsrdə yaşayıb-yaratdığına baxmayaraq, xalq ifadələri, bir sıra arxaik sözlər bu şerlərdə mühafizə olunmuşdur. Qaracaoğlan texminən 1606-cı ilde İzmir rayonunun Çuxur kəndinde doğulmuş ve 1679-cu ilde elə hemin kəndde de vefat etmişdir. Cahid Öztellinin verdiyi melumata göre şairin mezarı Çuxur kəndinde bir tepe üzerindedir. Hemin tepe yerli xalq terefinden "Ardıclı tepesi" adlanır.

Mut belədiyye reisinin göstərişi ile hemin tepeye "Qaracaoğlan" tepesi adı verilmişdir.

Dövrünün istedadlı saz şairi kimi şöhrət qazanmış Qaracaoğlanın çox zengin yaradıcılığı vardır. Şerlərinin əksəriyyəti heca vezninde, qoşma ve geraylı şəklinde yazılmışdır. Ən çox gözəlliyi, başqırı mehəbbəti, habele tebiəti təsvir edən şerləri vardır. Didaktik xarakterli ve ictimai edalətsizliyi tenqid edən qoşmaları da az deyildir. Qaracaoğlan ela bir dövrde yaşamışdır ki, bu dövrde hakimiyyetde olan İran hökmdarı ile türk sultanı dördüncü Murad arasında (1622-1639) ciddi toqquşmalar, müharibələr gedirdi. Xalqın böyük senetkarı bu cür qırğınların qarşısını almaq üçün bir sıra qoşmalar yaratmışdır. Xüsusilə, onun İran şahına ve türk sultanına müracieti bu cehetden en gözəl nümunələridir. Didaktik xarakterli şerlərinde de şair üzünü oxucusuna tutub deyir:

Yoldaş olma yolun bilmaz yolsuza,
Qonşu olma sözün bilmaz dinsizə.
Meyl verma edəbsizə, arsıza;
Aqibet irzina hiyle gətirar.

O, öz şerlərinde hem de insanları sebrli, tutumlu olmağa çağırır:

İgid atdan düşər, yena atlanar,
İgid olan her cefaya qatlanar...

Yaxud:

İgid güldürər de, namerd ağladar,
Pis adamda namus olmaz, ar olmaz...

və s.

Şair her cür eziyyəte dözməyi, dözümlü olmağı esas həyati şərtlərdən hesab edir. Çünki bele gethagedin yeqin ki, bir gelhagəli olar.

Qəm qəsəvət çekmə, divanə könlüm,
Her zamanda dünya başa dar olmaz...

Umumiyyetle, onun didaktik xarakterli öyüdləri, nəsihətnameləri geniş şöhrət tapmaqla uzaq-uzaq ellere yayılmışdır. Bezen aşıqlarımız Qaracaoğlanın bu öyüdlerinden sadınamə kimi de istifadə edirler.

Qaracaoğlanla bağlı bir sıra revayetler, efsanə ve mehəbbet dastanları da vardır. Bunların sırasında "Qaracaoğlanla Banli qız" dastanı daha maraqlı, daha çox diqqəte layiqdir. Burada Qaracaoğlan öz emisi qızı Zeynəbə göbekkəsmə olur, böyüyüb bir-birini sevirler. Uzun maceralardan sonra onlar öz muradlarına çatmadan dünyadan gedirler. Görünür, bir sıra Azərbaycan dastanları kimi, aşığın öz sevgilisine qoşduğu, onunla elaqədar söylədiyi mahnılar-şerler sonraki aşıqlar terefinden müveyyen kompozisiya esasında düzülerek dastanlaşdırılmışdır. Ağızdan-ağıza, dilden-dile geniş yayılmış ve dövrümüzə qədər gelib çatmışdır. Bu dastan bize bir növ "Tahir-Zöhrə" dastanını xatırladır. Çünki Zeynəbin atası, yani Qaracaoğlanın emisi uşaqlar böyüyüb boya-başa çatdıqdan sonra öz qızını daha varlı bir şəxsə vermək, guya onu xoşbext etmək istəyir. Ona göre de qızı Qaracaoğlandan uzaqlaşdırmaq fikrine düşür. Hetta emisi Qaracaoğlana uzaqdan bir sifariş gönderir ki, guya Zeynəb özgəsini sevir, ondan elini üz. Lakin Zeynəb öz sevgisine sadiq qalır, Qaracaoğlanın hesretile bir müddet yaşayır. Uzun müddet görüşmediyindən xəstələnib ölür. Qaracaoğlan onun yaşadığı kende gelir, Zeynəbin ölüm xəbərini eşidir, xəstələnir. Bir qocadan xahiş edir ki, egər ölərse, onu Zeynəbin mezarı yanında defn etdirsin. Ve bele de olur, onu Zeynəbin mezarı yanında defn edirler.

Xalq bu dastanı dinlədikcə Qaracaoğlanın emisi İsmayıl beye derin nifret edir, bele rezillere qarşı mübarize aparırlar. İster "Leyli-Məcnun", istərsə de "Tahir-Zöhrə"de olduğu kimi, burada da var-dövlet esas rol oynayır. Her iki aşığa muradlarına çatmağa imkan vermirler. Beləliklə, dövrünün bu acınacaqlı güzeranı, digər sevgililer kimi Qaracaoğlanla Zeynəbin de heyatına zeher qatır. Onların xoşbext olmalarına maneçilik törədir. Dastan ilk defe Rasih Yukay terefinden toplanaraq İstanbulda nəşr edilmişdir.

Qaracaoğlanın qoşmaları yalnız Türkiyede deyil, Bolqarıstanda, Yuqoslaviyada, Krımda, Zaqafqaziyada geniş yayılmışdır.

XVII əsrin bu görkemli el senetkarı özündən sonraki aşıq yaradıcılığına da xeyli tesir göstərmişdir. Özündən sonra yaşayan aşıqlarımızın yaradıcılığı bunu söylemeye bize haqq verir.

Rüstəm RÜSTƏMZADƏ
filologiya elmləri doktoru

YADDAŞIN SÖZ "NİŞANƏ"Sİ

Axtarışlar

Bu gündərdə əslən Zəngilandan olan qaçqın ədəbiyyat müəllimi mənə iki ildə çap edilmiş beş şer kitabını göstərdi. Doğrusu, imzası tanış deyildi, ancaq toplanan şerlerin sellqeli düzülüşü, nəşr olunan kitabların nəfis tertibatı mecbur etdi ki, onlardan birini ayaqüstü varaqlayım. Birki yazı seçib oxuyan kimi kitabların adı nəzm parçalarından ibaret olduğuna menda şübhə yeri qalmadı. Ancaq her kitabın ayrıca sponsoru vardı ve bunlara bir etek pul xerclenmişdi.

Bir neçe gündən sonra hemin müəllifi Fikret Sadığın yanında gördüm. Hirslənə-hirslənə, çığırıçığırıçığırıç